

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 53 (21.463)

*19 mart 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Martın 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir: Sabitlik, iqtisadi inkişaf, zəngin tarixi-mədəni irs, ekoloji cəhətdən təmiz qida məhsulları və yaradılan şərait Naxçıvanda turizmin inkişafını şərtləndirən əsas amillərdir. Muxtar respublikanın turizm potensialı bura səfər edən xarici ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir. Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın əsasını kənd təsərrüfatı və sənaye təşkil edir. Lakin mövcud turizm potensialı imkan verir ki, bu sahə də inkişaf etdirilsin. Turizmin inkişafı isə aid dövlət qurumları ilə yanaşı, həm də hər bir vətəndaşın, xüsusilə gənclərin üzərinə düşən əsas vəzifələrdəndir. Muxtar respublikanın tarixi, mədəniyyəti, coğrafiyası, müasir inkişafı və turizm potensialı haqqında məlumatların yayılması və təbliği hər kəsi düşündürməli, konkret tədbirlər həyata keçirilməlidir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova müşavirədə çıxış edərək demişdir ki, muxtar respublikada turizmin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Hazırda muxtar respublikada 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. 1200-dən çox tarix-mədəniyyət abidəsi vardır. Eyni zamanda bütün yaşayış məntəqələrini əhatə edən quruculuq işləri, istifadəyə verilən müasir turizm obyektləri bu sahənin inkişafı üçün geniş imkanlar açır. Son illər bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmiş, internet resurslarından səmərəli istifadə vasitəsilə muxtar respublikanın ilbəil inkişaf edən turizm potensialının təbliği sahəsində işlər görülmüş, 7 reklam informasiya materialı buklet şəklində hazırlanaraq çap etdirilmişdir. Həmçinin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisasları hamiliyə götürülmüş, tələbələrin hazırlıq səviyyələrini artırmaq üçün seminarlar təşkil edilmiş, onların mədəniyyət müəssisələrində və mehmanxanalarda təcrübə keçmələri təmin edilmişdir. Bundan başqa, ötən il Bakı şəhərində keçirilən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası 6 otel, 1 turizm müəssisəsi ilə təmsil olunmuşdur. Hazırda muxtar respublikaya gələn turistlər içərisində İran, Türkiyə, Rusiya, Çin, Nigeriya, Almaniya, Amerika Birləşmiş Ştatları, Suriya, Braziliya, Kanada, İndoneziya, Yaponiya, İsveç, Cənubi Koreya və başqa ölkələrdən olanlar üstünlük təşkil edir. Natəvan Qədimova muxtar respublikada turizmin inkişafı sahəsində yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Müzakirə olunan məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov, nəqliyyat naziri Mirsənani Seyidov, səhiyyə naziri Niyazi Novruzov, gənclər və idman naziri Azad Cabbarov, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Əsgər İsmayılov məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Bu gün ölkələrin əsas gəlir mənbələrindən biri kimi turizmin inkişafı məsələləri xeyli aktuallaşıb. Azərbaycanda bu sahədə kompleks tədbirlər görülmüş, yeni turizm infrastrukturları yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında da bu sahədə bir sıra tədbirlər həyata keçirilmişdir. Hazırda muxtar respublikada tarix-mədəniyyət abidələrinin, zəngin təbiətin, şəfalı suların, təbii müalicə mərkəzlərinin mövcudluğu turizmin inkişafı üçün geniş imkanlar yaratmışdır. Bu imkanlardan məqsədyönlü istifadə diqqət mərkəzində saxlanmış, ötən dövr ərzində Naxçıvanın turizm infrastrukturu xeyli dərəcədə yaxşılaşdırılmışdır. Avtomobil yolları yenilənmiş, tarixi və mədəni abidələr bərpa olunmuş, yeni otel və istirahət mərkəzləri tikilmiş, ən ucqar yaşayış məntəqələrində müasir tələblərə cavab verən istirahət, ticarət, xidmət və səhiyyə ocaqları istifadəyə verilmiş, Naxçıvan Turizm İnformasiya Mərkəzi yaradılmışdır. Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisasları açılmışdır. İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd keçid rejiminin sadələşdirilməsi, habelə Naxçıvan Beynəlxalq Hava Limanından xarici reyslərin təşkili turizmin inkişafı üçün əlverişli şərait yaradıb. Görülən işlərin nəticəsidir ki, 2015-ci ildə Naxçıvana gələn turistlərin sayı 390 min nəfərə çatmışdır.

Ali Məclisin Sədri demişdir: Aparılan təhlillər göstərir ki, muxtar respublikanın turizm infrastrukturundan hələ də lazımi səviyyədə istifadə olunmur. Hər bir ölkənin özünəməxsus təbii gözəllikləri, tarixi-mədəni abidələri var. Ancaq turizm o yerdə və o zaman inkişaf edir ki, bunlardan səmərəli istifadə olunsun, güclü təşviqat mexanizmi qurulsun. Çox təəssüf ki, turizm potensialının zəngin olmasına və bununla bağlı zəruri infrastrukturun mövcudluğuna baxmayaraq, muxtar respublikamız əlverişli turizm məkanı kimi lazımi səviyyədə tanıdılmır. Turizmin təbliğində elektron resurslardan istifadə mühüm əhəmiyyətə malikdir. Lakin elektron resurslarda muxtar respublikamızın görməli yerləri, tarixi abidələri, müasir turizm və sosial-mədəni infrastrukturu barədə təbliğat işi düzgün qurulmayıb. Mədəniyyət və Turizm Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsini və bu məlumatların daim yenilənməsini təmin etməli, dövlət təşkilatlarının internet səhifələrində Naxçıvanın turizm potensialı ilə bağlı bölmələr yaradılmalıdır.

Qeyd olunmuşdur ki, turizm imkanlarının təbliğində gənclər təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyasının Heydər Əliyev adına Gənclər Birliyi və Təhsil Nazirliyi bu məqsədlə proqram hazırlamalı, müxtəlif layihələr həyata keçirməli, gənclərin sosial şəbəkələrdə muxtar respublikanın turizm potensialının təbliğində fəallığını artırmalıdırlar. Muxtar respublikada müalicə-sağlamlıq turizminin də inkişafı diqqətdə saxlanmalıdır. Səhiyyə Nazirliyi Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanasının imkanları ilə bağlı elektron resursların hazırlanmasını və internetdə yerləşdirilməsini təmin etməlidir. İqtisadiyyat Nazirliyi Azərbaycanı, eləcə də Naxçıvanı tanıdan suvenirlərin, hədiyyəlik xatirə əşyalarının hazırlanması və satışını diqqətdə saxlamalı, ölkəmizdə və xaricdə təşkil olunan müxtəlif sərgilərdə Naxçıvanın turizm potensialı nümayiş etdirilməlidir.

Ali Məclisin Sədri demişdir: Turistin bir şəhər və yaxud bölgə ilə tanışlığı çox vaxt nəqliyyat vasitələri ilə səyahətdən başlanır. Sürücülərin davranışları, verdikləri məlumatlar turistlər üçün ilk təəssürat qaynaqlarıdır. Sürücülərin də yaşadıqları ərazinin tarixi, məişəti, təbiəti, mədəni ünvanları ilə bağlı ümumi biliklərə malik olması nəzərə alınaraq Mədəniyyət və Turizm Nazirliyi Nəqliyyat Nazirliyi ilə birgə taksi xidməti ilə məşğul olanlar üçün muzeylərdə seminar-məlumatlandırma işini təşkil etməlidir. Daxili turizm də diqqətdə saxlanılmalı, Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzinin imkanlarından düzgün istifadə edilməlidir. Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Yeni Azərbaycan Partiyasının Heydər Əliyev adına Gənclər Birliyi hər həftə sonu məktəblilərin, aztəminatlı ailələrin uşaqlarının, sağlamlıq imkanları məhdud uşaqların Ağbulaq İstirahət Mərkəzində istirahətlərini təşkil etməlidir.

Təcrübə göstərir ki, peşəkar kadr təminatı olmadan turizmin inkişafı mümkün deyildir. Turizm sahəsində çalışan kadrlar tarix, coğrafiya, mədəniyyətşünaslıq sahələrini, zəruri xarici dilləri bilməli və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarığına yiyələnməlidirlər. Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universiteti Turizm və otelçilik ixtisası üzrə ali təhsilli kadr hazırlığı səviyyəsini artırmalı, peşə və ixtisas səviyyələrinin yüksəldilməsi üçün metodiki vəsaitlər hazırlanmalı, praktik məşğələlər təşkil edilməlidir. Muxtar respublikada turizm sahibkarlığı da inkişaf etdirilməlidir. Özəl sektor bu sahədə xüsusilə təşəbbüskar olmalı, real təkliflər ortaya qoyulmalıdır. İqtisadiyyat Nazirliyi turizmlə məşğul olan sahibkarlara müvafiq tövsiyələr verməli, biznes-planların işlənilməsinə və onların tətbiqinə çalışmalıdır.

Müşavirədə qeyd olunmuşdur ki, turizmin inkişafı turistlərin təhlükəsizliyinin qorunması məsələsini də aktuallaşdırır. Bu sahədə də aidiyyəti dövlət orqanları fəaliyyətlərini gücləndirməli, onlarla işin təşkilinə diqqəti artırmalıdırlar. Aidiyyəti dövlət orqanları turistlərin gediş-gəlişi zamanı rəsmiləşdirmə qaydalarına düzgün riayət etməli, turistlərə heç bir maneə yaradılmamalıdır. Muxtar respublikanın kütləvi informasiya vasitələri turizmin təbliği ilə bağlı tematik materiallar hazırlamalı, turizmin inkişafına öz töhfələrini verməlidirlər. Mədəniyyət və Turizm Nazirliyi Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birlikdə turizm obyektləri ilə bağlı video-çarxların hazırlanmasını və onların internetdə yerləşdirilməsini təmin etməlidir.

Ali Məclisin Sədri müşavirəyə yekun vuraraq demişdir: Muxtar respublikada turizmin inkişafı bizim hər birimizi düşündürməli, turizmin düzgün təbliği və təşviqi üçün aid təşkilatlar səylərini artırmalıdırlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir

Naxçıvan Dövlət Universitetində Hüquqşünaslıq ixtisası üzrə təhsil alan IV kurs tələbələri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin iş prosesi ilə tanış olmuşlar.

Sonra Ədliyyə Nazirliyinin akt zalında tələbələrlə görüş keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış etmişdir.

Qeyd olunmuşdur ki, növbəti görüş ali təhsil müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Ali Məclis Sədrinin 27 iyul 2015-ci il tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin üzərinə düşən vəzifələrlə bağlıdır.

Bildirilmişdir ki, nazirliyin fəaliyyət istiqamətləri genişdir. Bunlardan biri də ekspertiza fəaliyyətidir. Muxtar respublikanın mövcud coğrafi relyefi ekspertiza işlərinin Bakı şəhərinə göndərilməsinə çətinlik yaradırdı. Bunu aradan qaldırmaq məqsədilə Ali Məclis Sədrinin təşəbbüsü ilə 5 oktyabr 2005-ci ildə Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialı təsis edilmişdir. Qısa müddət ərzində filial üçün inzibati bina ayrılmış, lazımi avadanlıqlarla təmin olunmuşdur. Ekspertlər ixtisasartırma kurslarına göndərilmişdir.

Ali Məclis Sədrinin 22 oktyabr 2015-ci il tarixli Fərmanı ilə Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialı müstəqil Məhkəmə Ekspertizası Mərkəzinə çevrilmişdir. Hazırda mərkəzdə 11 növ, 17 ixtisas sahəsi üzrə tədqiqatlar aparılır.

Mərkəzdə 17 inzibati vəzifə üzrə çalışan əməkdaşlardan 14 nəfəri Naxçıvan Dövlət Universitetinin məzunudur. Bu da məzunların bu sahəyə marağını göstərir.

Vurğulanmışdır ki, növbəti tədbirlər nazirliyin digər xidmət sahəsi olan Penitensiar Xidmətdə təşkil ediləcəkdir. Bu, tələbələrin həmin sahə üzrə nəzəri biliklərinin praktik şəkildə mənimsənilməsinə müsbət təsirini göstərəcəkdir.

**Xəbərlər şöbəsi**



# Novruz



***Yaşlı və orta nəsil yaxşı xatırlayır ki, 70 il hökm sürən sovet quruluşu dövründə Novruza "dini bayram" damğası vurulmuş, bu bayramın keçirilməsi yasaq edilmişdi. Bu qadağaya baxmayaraq, ötən əsrin 70-80-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi nüfuzu sayəsində Novruz bayramı ölkəmizdə geniş qeyd olunurdu. Bu, ulu öndərin doğma Vətəninə, onun qədim, zəngin tarixinə, cahanşümul mədəniyyətinə, milli adət-ənənələrinə tükənməz məhəbbətinin əyani təzahürü idi.***

## Novruz bayramının Azərbaycanda dövlət səviyyəsində qeyd olunması ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır

Ümummilli lider Heydər Əliyev çıxışlarının birində bu bayram barədə demişdir: ***"Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır... Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir".***

Novruza belə yüksək münasibətin ifadəsini ulu öndər Heydər Əliyevin bütün həyatı və siyasi fəaliyyəti dövründə görürük. Bunun bariz təzahürüdür ki, ümummilli liderimizin ölkədə siyasi hakimiyyətə yenidən qayıdışından sonra Novruz bayramı milli dövlət bayramı səviyyəsinə yüksəldilmişdir. Novruzun milli taleyimizdəki yerini, ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olduğunu, müstəqillik əldə etmiş gənc Azərbaycan Respublikasının dövlət quruculuğundakı məqamını, bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu yüksək dəyərləndirən görkəmli dövlət xadimi Heydər Əliyev Novruz bayramının ölkəmizdə yüksək əhval-ruhiyyədə qeyd olunması üçün lazımi tədbirlər həyata keçirmişdir. Novruzun taleyini Vətənin taleyi ilə eyniləşdirən xalqımızın böyük oğlu sevinclə bildirirdi ki, indi Novruz Azərbaycanın dövlət bayramıdır. Lakin bu, digər dövlət bayramlarından ona görə seçilir ki, Novruz təbiətdən gəlmiş bayramdır, eyni zamanda özünün maddi vəziyyətindən asılı olmayaraq, hər bir insan onu qeyd edir.

Ulu öndər Heydər Əliyevin bayram münasibətilə Azərbaycan xalqına təbrikləri Novruzun ruhundan doğurdu, ona görə də xalqın ürəyindən xəbər verirdi. Ölkədəki ictimai-siyasi durumu, adamların rifah halını, ümumiyyətlə, dövlət quruculuğu prosesini Novruz adətləri ilə bağlayan ulu öndərimiz Novruz bayramının ümumxalq bayramına çevrilməsi, ölkənin hər bir guşəsində bu əziz günün əmin-amanlıq şəraitində, bol süfrə ilə qeyd olunması üçün ictimai-siyasi sabitliyi möhkəmləndirməyə, ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etməyə çalışırdı.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin layiqli varisi kimi ümummilli liderin bu istiqamətdə müəyyənləşdirdiyi siyasətə sadiq qalaraq Novruzun yüksək səviyyədə qeyd olunması üçün lazımi tədbirlər həyata keçirir.

Bu əziz bayram milli dəyərlərin, mahiyyəti etibarilə milli varlığın qorunma vasitəsidir. Bu yanaşma Azərbaycan dövlətinin artıq bütün dünyada böyük əks-səda verən mədəniyyət siyasətinin əsasını təşkil edir. Bu gün qürur hissi keçiririk ki, ümummilli liderimizin böyük səyləri ilə rəsmi dövlət bayramı – əbədi yaşamaq hüququ qazanmış Novruz bayramı artıq dünyada tanınmaqdadır. 2009-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin yekun qərarına əsasən, Novruz bayramının qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Azərbaycanın milli siyasətində Novruzun milli özünütəşkil və yaşatma mexanizmi kimi nə qədər böyük gücə malik olduğunun parlaq sübutudur.

BMT tərəfindən martın 21-nin "Beynəlxalq Novruz Günü" elan edilməsi, Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Məclisində 2010-cu il fevralın 23-də "Beynəlxalq Novruz Günü" adlı qətnamə layihəsinin qəbul olunması hər bir azərbaycanlının fəxarət mənbəyidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin respublikamıza rəhbərliyi dövründə ölkəmizin daha sürətli və davamlı inkişafı təmin olunmuş, ictimai-siyasi sabitlik möhkəmləndirilmiş, Azərbaycan Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir. Bütün bu uğurları vətəndaşlarımız öz gündəlik həyatında qabarıq hiss edir, gələcəyə böyük ümid bəsləyirlər. Xalqımız builki Novruz bayramını məhz belə bir yüksək ovqatla qarşılayır. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə nəzər saldıqda dövlət başçısının milli dəyərlərimizə son dərəcə diqqətlə yanaşdığının, mədəniyyətimizin inkişafına xidmət edən lazımi tədbirlər həyata keçirdiyinin şahidi oluruq. Bu illərdə Azərbaycan Prezidenti mənəvi irsimizlə bağlı kitabların dərc olunmasından tutmuş yaradıcı şəxslərin fəaliyyətinin qiymətləndirilməsinə qədər müxtəlif sərəncamlar imzalamışdır. Bu, ölkə başçısının ulu öndərin siyasi kursunun layiqli davamçısı kimi həm də mədəni-mənəvi irsimizə bağlılığından xəbər verir. Dövlət başçısı Novruzu hər bir azərbaycanlının daxili aləmində ən ülvi niyyətlərin və saf duyğuların yer tutduğu bayram kimi qiymətləndirir: "Novruz bayramı ulu əcdadlarımızın bizə gözəl yadigarıdır. Azərbaycan torpağında bu bayram çox qədim zamanlardan əsl milli bayram kimi qeyd olunmuşdur. Xalqımız yazın gəlişini ilaxır çərşənbələrdən Novruz axşamınadək kütləvi şənlik və mərasimlərlə qarşılamış, təbiətin canlanması ilə başlayan hər yeni ilin firavanlıq, xoşbəxtlik və əmin-amanlıq gətirməsini arzulamışdır. Novruz bayramı Azərbaycan xalqının gələcəyə inam hissini, ürəkaçıqlığını, qonaqsevərliyini, ünsiyyət, mehribançılıq və dostluq duyğularını özündə toplamışdır. Hər kəsin layiqincə qarşılamağa çalışdığı bahar bayramında insanın fikri, əməli və istəyi təzələnir, könüllərdə saf duyğular oyanır. Dünya haqqında ilkin təsəvvürlərlə bağlı olan bu bayram mənəvi gözəlliyi, mərhəməti və xeyirxahlığı təcəssüm etdirir".

Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da Novruz xüsusi şövqlə keçirilir. Bu qədim diyarda Novruzla bağlı özünəməxsus adət-ənənələr formalaşmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli dəyərlərə böyük sevgi və ehtiramı bu bayramın tarixi köklərə bağlı şəkildə keçirilməsini, onun ümumxalq şənliyinə çevrilməsini təmin etmişdir. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar diyarımızda bayram şənliklərinin daha yüksək səviyyədə təşkilinə stimul vermişdir. Xalq yaradıcılığı günləri çərçivəsində Naxçıvan şəhərində, rayon mərkəzlərində, kəndlərdə, idarə, müəssisə və təşkilatlarda, təhsil ocaqlarında bir-birindən maraqlı tədbirlərin keçirilməsi bu bayramın, doğrudan da, ümumxalq şənliyinə çevrilməsinin göstəricisidir.

Bu gün hamımız Novruz bayramına dövlətin verdiyi dəyər və önəmi doğru-düzgün qiymətləndirməli, ona milli dövlət quruculuğumuzda hər bir vətəndaşın yaxından iştirakı üçün verilmiş milli quruculuq töhfəsi kimi yanaşmalıyıq. Çünki xalqımızın mənəvi mədəniyyətinin öyrənilməsində, qədim mifik görüşlərindən tutmuş adət-ənənəsi, həyat tərzi haqqında aydın təsəvvürlər əldə edilməsində Novruz bayramının rolu çox böyükdür. Bu rolu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yüksək dəyərləndirir. Ölkə rəhbəri bayramın layiq olduğu səviyyədə keçirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirir, hər il Novruz bayramı ərəfəsində Azərbaycan xalqını təbrik edir, hər birimizə yeni ildə uğurlar arzulamaqla Novruzun mahiyyətini ən incə detalları ilə ortaya qoyur. Dövlət başçısının 2016-cı il mart ayının 16-da Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində deyildiyi kimi: ***"Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər. Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında toleranlığın həqiqi təntənəsi vardır. Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq UNESCO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur".***

*Hər bir azərbaycanlı həmişə bu sərvətlərə bağlı olduğu kimi, bu il də Novruzu, yazın gəlməsini böyük sevinclə qarşılayır, bir daha xoş əhval-ruhiyyə nümayiş etdirir. Çünki Azərbaycan xalqı bütün varlığı ilə bu bayrama bağlıdır.*

✍ **Muxtar MƏMMƏDOV**

## Milli-mənəvi dəyərlərimizi özündə yaşadan bayram

***Bəşəriyyətin təkamül prosesinin nəticəsi hesab edilən adət-ənənələr, milli-mənəvi dəyərlər, xüsusən bayramlar bütün dövrlərdə cəmiyyətin sosial-mənəvi və mədəni tərəqqisinin göstəricilərindən biri kimi qiymətləndirilib. Çünki bütün bunlar bir xalqın tarixi inkişaf yolunu, onun həyat tərzini, dünyagörüşünü ifadə edir. Elə buna görə də bəşər tarixinin müxtəlif dövrlərində bu məsələlər dünya alimlərinin diqqət mərkəzində olub. Platon, Demokrit, Epikur, Didro, Sokrat və başqaları öz əsərlərində adət və ənənələr haqqında maraqlı fikirlər qeyd ediblər.***



Bir xalqın inkişaf etməsində və formalaşmasında adət-ənənələrin müstəsna rola malik olduğunu vurğulayan qədim yunan filosofları daim bu adətlərin təbliğ olunmasını vacib sayıblar. Bunun mahiyyəti ondan ibarətdir ki, milli adət-ənənələr insanların dünyagörüşünə və onların əxlaqına, mənəvi dünyasının zənginləşməsinə, Vətənə, torpağa, xalqa bağlılıq hisslərinin daha da güclənməsinə müsbət təsir göstərir.

Adət-ənənələr, mənəvi dəyərlərimiz bu gün daha çox ictimai rəyə əsaslanan yazılmamış, necə deyərlər, ünsiyyət qanunları kimi mövcuddur. Adət-ənənə ilə əxlaqi keyfiyyətlər arasında qırılmaz bağlılıq var. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çünki milli-mənəvi dəyərlər xalqın milli, estetik ruhunu, duyumunu, sənətkarlıq qüdrətini özündə yaşadır. Hazırda bu dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda milli özünəməxsusluğun ifadə vasitəsinə çevrilib.

Sürətlə qloballaşan müasir dünyada ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasında optimal nisbətin tapılmasıdır. Çünki qloballaşma prosesi elmin, texnikanın, texnologiyanın inkişafı və mənimsənilməsi ilə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərin aşınmasına da sarsıdıcı təsirlərini göstərir. Bu gün gənc nəslin mobil telefonlara aludəçiliyi, hətta avtomobil yolunu keçərkən də bir gözünün, daha doğrusu, iki gözünün mobil telefonda olması hər birimizin müşahidə etdiyi haldır. Həmin telefonlarda olan müxtəlif proqramlardan, həmçinin sosial şəbəkələrdən düşüncəsizcə istifadə nəticəsində bu gün ailə üzvləri arasında ünsiyyətin kəskin şəkildə azalması əxlaqi və milli-mənəvi dəyərlərimiz üçün böyük təhlükədir. İstənilən halda biz qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq qalmalıyıq. Çünki dünya təcrübəsindən də görürük ki, hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstündür. Belə bir şəraitdə məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənələri saxlamaq, hansı yöndə isə yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir.

Bu məqamda milli adət-ənənələrimizin, bayramlarımızın əhəmiyyəti bir daha artır. Ona görə ki, bayramlar insanın mənəvi aləminin zənginləşməsinə, dünyagörüşünün formalaşmasına, insanda əxlaqi dəyərlərin inkişaf etməsinə daim müsbət təsir göstərib. Hazırda xalqımızın qeyd etdiyi bayramlardan heç birini ənənələrinə görə Novruz bayramı ilə müqayisə etmək mümkün deyildir. Novruz bayramı baharın gəlişi, təbiətin oyanması, insan ruhunun paklanması və mənəvi cəhətdən təmizlənməsi ilə əlaqədar bir bayramdır. Bu bayramda küsülülər barışmalı, qohumlar bir-birini ziyarət etməli, dostluq münasibətləri qorunub saxlanılmalıdır. Kimsəsizə, fəqirə, kasıba yardım edilməli, insanlara sevgi, qayğı göstərilməlidir. Bu cür bayramlar insanın mənəvi aləmini inkişaf etdirərək insana humanizmi, ədaləti, adət-ənənələrə bağlılığı aşılayır.

Bu qədim el bayramı öz təravətini, gözəlliyini bu gün də saxlayır. Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm hissəsini özündə ehtiva edən unikal mədəniyyət hadisəsidir. Bayramın mahiyyəti quruluşca mürəkkəb, məzmunca dərin və geniş əhatəlidir. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğu aydın görünür. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, Türkiyədə, və Orta Asiya ölkələrində bahar bayramı kimi qeyd edilir.

Adət-ənənələrimizə görə, Novruz, ilk növbədə, yeni ilin gəlişi, dünyanın və insanın yaradılış bayramı kimi qeyd olunur. Onun xalqları, dinləri, qitələri əhatə edən kulturoloji-fəlsəfi əzəmətinin, milli böyüklüyünün əsasında varlıq aləminin yaradılışı haqqında ilkin mifoloji konsepsiya dayanır. Bu cəhətdən Novruz bayramı milli fəlsəfəsinə, kosmik mahiyyətinə görə insan və onun dünyasının yaradılış mexanizmi, cəmiyyətin inkişaf və təkamülünün nəticəsidir. Bu mənada, bizim milli və tarixi nailiyyətimiz ondan ibarətdir ki, müstəqil ölkə kimi bu gün ümumxalq bayramı olan Novruzu dövlət səviyyəsində qeyd edirik. Bu gün Novruza bizim müqəddəs milli irsimiz kimi yeni həyat verilib. Ona milli varlığımızın qorunma vasitəsi kimi daim diqqət yetirilir. Bu yanaşma çağdaş dövlətimizin artıq bütün dünyada böyük əks-səda verən mədəniyyət siyasətinin əsasını təşkil edir.

✍ **Rauf ƏLİYEV**

# Ordubadda Novruz

***Neçə illərdir ki, müstəqil Azərbaycan dövlətinin rəsmi bayramları sırasına daxil olan, doğma xalqımızın ən qədim adət-ənənələrini, milli-mənəvi dəyərlərini özündə yaşadan, milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrilən Novruz bayramı Azərbaycanın hər bir bölgəsində özünəməxsus şəkildə qeyd olunur. Bu baxımdan Ordubad rayonunda keçirilən Novruz bayramı bir sıra xüsusiyyətləri ilə diqqəti çəkir.***

Burada bayrama hazırlıq hələ fevral ayından, elə ilk çərşənbədən başlayır. Çərşənbələr zamanı axşamlar evlərin həyətində tonqallar qalanır. Axır çərşənbə olan od çərşənbəsi Novruzun ən yüksək məqamıdır. Bu gün o qədər şən keçməlidir ki, il insanlar üçün uğurlu və sevincli olsun. Həmin gün əhalinin çox hissəsi ən gözəl libaslarını geyinərək şəhərin mərkəzində yerləşən bazara üz tutur.

Ordubadda ilaxır çərşənbəsi "Yeddiləvin" adlanır. Bu gün də ordubadlılar şəhərin qonaqlarını mütləq təəccübləndirməyə çalışırlar. Əvvəllər meydanlardan birində zurnanın müşayiəti ilə şən oyunlar və rəqslər təşkil olunardı. Başqa meydanda dərviş nəğməsi səslənərdi. Çayxanada sazandalar saz çalar, aşıqlar oxuyardılar. Bəzən başqa rayonlardan gəlmiş kəndirbazlar da məharətlərini nümayiş etdirərdilər. Çıxışlar, adətən, gündüzlər təşkil olunurdu.

Ordubadda Novruzun ən çox sevilən ərəfəsi məhz "Yeddiləvin"lə əlaqəlidir. "Yeddiləvin günü" süfrələrə cürbəcür nemətlər düzülür. Bu nemətlər, əsasən, 7 adda olmalıdır. Bəzi yerlərdə "yeddiləvin"ə "yeddisin" də deyirlər. "Yeddiləvin axşamı" tonqallar qalanır. Əhalinin bayram sevincini ifadə edən ən möhtəşəm tonqal dağların uca nöqtəsində yandırılır. Hamının bir-birinə bu barədə ilk sualı belə olur: "Görəsən, Bəlkədə tonqal qalanıbmı?" Bəlkə dağında tonqalın qalanması hamının bayram sevincini birə-beş artırır. Daha sonra Novruzun qədəm qoyduğu gün səbirsizliklə gözlənilir. Martın 21-dən etibarən əhalinin bayram görüşləri başlayır. Bayram görüşlərinin əsas məqsədi insanların bir-birini yad etməsidir. Əvvəlcə ev sakinləri bayramın ilk günü sübh tezdən oyanaraq evin böyüklərini təbrik edirlər.

Martın 21, 22, 23-də Ordubad şəhərində, eləcə də Nüsnüs, Vənənd, Düylün, Əylis və başqa kəndlərdə "Xanbəzəmə" oyunu təşkil olunur. Şəhərin "Sərşəhər" deyilən meydanında Xan bəzədilir. İndi isə bu mərasim həm də şəhərin Mingis meydanında həyata keçirilir. Bir nəfər qaraqabaq adamı xan kimi bəzəyib taxt-taca əyləşdirirlər. Xan meydana at üstündə daxil olur. Ətrafındakı vəzir, vəkil onu qoruyur. İki nəfər yelpiklə xanı yelləyir. Təlxəklər onu güldürməyə çalışırlar. Oyunun şərtinə əsasən, xan təlxəklərin hərəkətlərinə gülməməlidir. Əgər gülərsə, meydanda və ya mərasimin təşkil olunduğu yerdə mövcud olan hovuzda camaat onu suya basır. Üç gün ərzində bütün göstərilən məzəli hərəkətlərə dodağı belə qaçmayan "xan" rolunu icra edən şəxs xalq tərəfindən mükafatlandırılır.



Vənənd kəndində də bayram günlərində meydan tamaşaları üç gün keçirilir. Üçüncü gün müxtəlif yaşlı insanlar təkayaq, cütayaq yallısı oynayırlar. Sonra cavanlar güləşirlər. Sonda isə cavanlar "Çöpüdüm" yallısı gedirlər. Dəstəbaşı əlinə vən çubuğu alır ki, kimisə vuranda ağrıtsın. Axırda dəstə başçıları üz-üzə dayanır, hər iki



dəstənin üzvləri gəlib onların arasından oynaya-oynaya keçirlər.

Bu bayramda ən çox xoşagələn, uşaqların və böyüklərin sevdiyi nemətlərdən biri də boyanmış yumurtadır. İnama görə, hər bir evdə yumurta boyanmalıdır. Boyanmış yumurtalardan evin hər bir sakini yeməlidir, həm də axıra kimi, yəni hamısını. Yumurtanı tam yemək lazımdır, yarımçıq saxlamaq olmaz. Bu, bağrıbütövlük deməkdir. Yəni bağrıbütöv olan insan ömürboyu böyük dərdlərlə rastlaşmaz, həyatdan kəsiri olmaz, əzizlərinin ağrı-acısını yaşamaz. Bayram görüşünə gedən hər kəs, əgər evdə balaca uşaq varsa, mütləq əlində boyanmış yumurta aparmalıdır.

Novruz bayramında yumurta bəzəmə adətini xalq bir rəvayətə bağlayır: "Uzun illər bundan əvvəl mart ayının 21, 22, 23-nü padşah nəyisə bayram etmək istəyir. Əmr verilir ki, martın 21, 22, 23-ü hamı əlində bir şey götürüb padşahı ziyarətə getsin. Amma padşah bu bayramın adını tapa bilmirdi. Bir nəfər kasıb kişi olur. Onun evdə heç nəyi olmur. O, üç ədəd qırmızı boyanmış yumurta götürüb padşahın yanına gedir və padşaha deyir:

– Padşah sağ olsun, mənim evdə heç nəyim yox idi. Ona görə də sizə üç ədəd yumurta boyayıb gətirmişəm.

Padşahın bu kişidən çox xoşu gəlir və fikirləşir ki, kişinin adını soruşub bayrama bu adı qoymaq lazımdır. Padşah kişidən adını soruşur. Kişi cavab verir ki, adı Novruzdur. Padşah da bu bayramın adını Novruz qoyur və qırmızı yumurta da o zamandan dəbə düşür".

Novruz bayramında yumurta oyunlarının böyük maraq doğurduğu məlumdur. Ordubadda bu bayramda yaşına baxmayaraq insanlar bu oyunu indi də yaşadırlar. Yumurta döyüşdürmə bir neçə formadadır. Tək-tək döyüşdürəndə bəzən dişə vurub yumurtanın bərkliyini-boşluğunu yoxlayırlar. Buna "dadışmaq" deyirlər. Sonra kimin yumurtanı əlində və necə saxlayacağı, kimin isə üstdən və necə vuracağı razılaşılır. Kimin yumurtası qırılarsa, o, uduzmuş olur və sınıq yumurtanı qalib gələnə verir. Başqa bir halda, 4-5 nəfər yumurtaları bir uşağın ətəyinə yığır. Yumurtalar qarışır. Bəxtəbəxt hərə bir yumurta götürüb döyüşdürür. Kim əlindəki yumurta ilə digər yumurtaları çox qırarsa, o, qalib olur. Buna "ətəyə atmaq" deyirlər. Yumurta çox olduqda onları sıra ilə düzür və bir tərəfdən götürüb döyüşdürürlər. Axırıncı yumurtanı sındıran sıradakı yumurtaların hamısını udmuş olur. Buna "qatara qoymaq" deyirlər. "Hol qoymaq" da maraqlı oyundur. Nisbətən maili yer seçilir, yumurtaları sıra ilə düzüb qabağına çöp qoyurlar. Çöpü götürdükdə yumurtalar dığırlanır. Kimin yumurtası daha uzağa dığırlansa, o, qalib sayılır və sıradakı yumurtaların hamısını udmuş olur.

Ordubadda yazın ən qorxulu ərəfəsinə "Şeşəqovan" deyirlər. Ərazidəki inama əsasən, bayramdan 36 gün keçənə qədər mal-qara üçün qorxuludur. Gərək ehtiyat yem olsun. Havaların istiləşməsinə etibar etməyən xalqın fikrində bu inam da özünə yer almışdır: "Bayramdan sonra 40 kötük yanar". Yəni evdəki yanacağa da qənaət etmək lazımdır.

Bayramdan sonrakı adətlərdən biri də bayram vaxtı göyərdilmiş səmənilərin axar sulara atılmasıdır. İnanırlar ki, səməni axar suya atılarsa, ruzi-bərəkətləri ilboyu bol olacaq.

Ordubadın Dırnıs kəndində Novruz bayramının 13-cü günündə belə bir adət icra olunur. Mərasim "Novruzun on üçü" adlanır. Novruzdan sonra bitkini, təbiəti, taxılı və çörəyi simvolizə edən səməninin axar suya atılması da ilk məhsulun hami ruhlara qurban verilmə şəkillərindən biridir. Ordubadda bu hami ruhlar "əyə" adlanır (Ordubad dialektinə məxsus "əyə" sözü – yiyə, sahib anlamındadır). Yəni bu mərasimi "su əyəsinə qurbanvermə" mərasimi kimi də xarakterizə etmək olar.

**Aytən CƏFƏROVA**

## Novruz inancları

Bəzi yerlərdə martın 22-də Günəş üçün üç boxça yandırılır: birində xəstəliklər, ikincidə acılar, üçüncüdə dərdlər yandırılır.

* * *

Qışda hər şey yatıb donur. Yaz gəlib dörd dəfəyə bunları ayıldır. Bunların ayılması Novruz bayramında olur. Ona görə də Novruz oyanış bayramıdır.

* * *

Bayramın səhəri gün axar su üstünə gedər, sudan atlanar, su və yeddi çınqıl gətirib həyətə atarlar.

* * *

Novruzda süzülən plovun suyunu ağacların dibinə tökərlər, neçə il bar verməyən ağac bar verər. Həmin sudan bir stəkan götürüb şər qarışan vaxtı həyət qapısından küçəyə atar, qapının dalında pusarlar. Əgər küçədən oğlan keçsə, niyyət qəbul olunar, qız keçsə isə yox.

## Bayram adətləri

Bizdə əvvəllər alaqapı bəzəmə deyilən bir adət olub. Bayramda kəndin ortasında yer ayrılar, hər kəs gücünə görə oraya bir şey qoyarmış və bu yığılan ənam da kəndin kasıblarına paylanarmış.

* * *

Novruz bayramında kəndin başbilənləri teştə balıq ötürər, gözlərmişlər. İl təhvil olanda balıqlar arxası üstə dönərlər. Bununla da, yeni ilin gəlişi elan olunarmış. Həmin sudan uşağı olmayan gəlinlərə, evdə qalmış qızlara, xəstə insanlara verərmişlər. Buna çiləsuyu deyərdilər.

* * *

Novruz bayramında, çilldə insanlar niyyət edərkən ayağının altına qıfıl, açar qoyar (mən öz ağzımı bağladım, taleyimi səndən gözləyirəm), gözləyər, nəzərdə tutduqları adamın ilk sözünə uyğun öz niyyətlərini yozarlar.

## İlin on üçü

Bu olur Novruzdan 12 gün keçəndə, yəni on üç deyən günün səhərində. Kəndin qız-gəlini yığışır bir həyətə, hər kəs də 13 yeməyi hazırlamağa bir şey gətirir özüynən. Biş-düş eləyərlər, oxuyarlar, çalıb-oynayarlar. 13 yeməyində əriştə də olar. Odu ki, deyərlər:

*Əriştə – əlin işdə...*

Yeməkdən sonra da hərə gedər öz bağçasına. Bayramdan qalma səmənilər o vaxta saralıb-soluxar. Onları çox yerdə atarlar suya. Bəzi yerlərdə suya atmazlar, ilin 13-də qız-gəlin aparar qoyar bağçada torpağın üstünə. Həmin gün qadınlar evə kibrit, kişilər isə odun gətirər.

## Novruz bayatıları

*Xalçanın eni beş qarış,*
*Güllü, butalı naxış.*
*Bayram küsülü sevməz,*
*Qadan alım, gəl barış.*

*İl dolandı, gəldi yaz,*
*Bülbül satdı gülə naz.*
*Ağlım başımdan aldı,*
*Burdan gedən sərvinaz.*

*Bu gələn Novruza bax,*
*Əllərdəki saza bax,*
*Gəldi dünya dəyişdi,*
*Bahara bax, yaza bax.*

## Yazla bağlı deyimlər

Yaz yağmuru tez keçər.

* * *

Yazda başı bişənin qışda aşı bişər.

* * *

Yaxşı il yazından bəlli olar.

* * *

Yazın birinci günü deyərlər, bahardandı. İkinci günü yaydan, üçüncü günü payızdan, dördüncü günü qışdan...



# Novruz ətirli Naxçıvan bayram libasındadır

***Neçə illərdir ki, gəncləşən qədim Naxçıvanımız gülüstan timsalındadır. Hər birimizin gözü qarşısında gözəl, füsunkar məkana çevrilən diyarımızın təbii gözəllikləri isə ilin bu fəslində onun simasına daha zəngin çalarlar qatır.***

Ağaclar tumurcuqlayır, güllər qönçələnir, ürəklər yaz nəfəsi ilə döyünür. Paytaxt şəhərimizi gəzib dolaşdıqca köksümüz fərəhdən, sevincdən qabarır, qəlblər riqqətə gəlir. Özünü yeni bir aləmdə hiss edirsən. İnsanların təbəssümlü baxışlarından qəlboxşayan ifadələr oxuyursan: xoş gəlibsən, elimizə, obamıza, Novruz! Qədəmlərin uğurlu olsun, Novruz. İlimizin ilk günü başlanır, ruzi-bərəkətin təməli qoyulur səninlə.

Belə duyğu və düşüncələri isə hər bir naxçıvanlıda yaradan amillər çoxdur: təmin olunmuş ictimai-siyasi sabitlik, insanların yaxşı yaşamasına, maddi rifah hallarının yüksəldilməsinə hesablanmış tədbirlər, geniş-miqyaslı tikinti-quruculuq işləri, ticarət obyektlərində müşahidə olunan bolluq. Bu bolluq elə-belə yaranmayıb, yollar düşünülüb, layihələr həyata keçirilib ki, insanlar yaxşı yaşasınlar. Buna da nail olunub. Artıq diyarımız öz tələbatını yerli məhsullar hesabına ödəməkdədir. Muxtar respublikamızın emal və istehsal müəssisələrinin məhsulları dükan-bazarlara insan axınını daha da gücləndirib.




Çünki hər bir naxçıvanlı öz bayram süfrəsini zəngin görmək istəyir. Bunun həm onun məvi haqqı, süfrəsini zənginləşdirməyə isə imkanı var. Saymaqla qurtarmayan belə amillərin təməlində isə insana qayğı dayanır. Təbii ki, belə qayğı naxçıvanlıların qurub-yaratmaq eşqinə öz təsirini göstərir. Sakinlərimiz Novruz bayramını bu il də yüksək sevinclə qarşılayırlar. Bunu həm Naxçıvan şəhərində, həm də muxtar respublikanın rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində hər addımda görmək olar. İstirahət guşələrinin, parkların siması yaz rəngindədir. O ünvanlarda Novruz ətri duyulur. Bu məkanlarda Novruzu təntənə ilə qeyd etmək üçün yüksək şərait yaradılıb. Bir neçə gün o ünvanlardan musiqi, çal-çağır səsləri kəsilməyəcək. Ən böyük bayram şənliklərinə isə Əcəmi seyrəngahı şahidlik edəcək. Adət-ənənələrimiz nümayiş etdiriləcək, qədim milli oyunlarımız ruhumuzu təzələyəcək. Milli-mənəvi dəyərlər sistemində özünəməxsus yer tutan Novruz özü ilə xeyir-bərəkət gətirəcək.

*Bayramsayağı bəzədilmiş Naxçıvan Novruzu qarşılamağa hazırdır.*




**✍ M.MƏMMƏDOV**

## Naxçıvanın istehsal müəssisələri, təhsil ocaqları, qədim tarixi abidələri, istirahət məkanları və təbiəti şagirdlərdə xoş təəssürat yaradıb





*Martın 18-də "Ölkəmizi tanıyaq" maariflәndirici tur-aksiyanın iştirakçıları Şahbuz rayonuna gediblər.*

Şagirdlər əvvəlcə "Farma Şah" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanış olublar. Bildirilib ki, 2009-cu il aprelin 27-də təsis edilən müəssisə 2010-cu ildən tam fəaliyyətə başlayıb. Şahbuz şəhərində yerləşən müəssisədə paketlənmiş dərman bitkiləri, çaylar və bəkməzlər istehsal olunur. Məhsullar Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən sertifikatlaşdırılıb. Müəssisənin avadanlıqları Çin, İran və Almaniyadan gətirilib. Burada il ərzində 8 ton xammal toplanılaraq emal olunur və qablaşdırılır.

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdə şagirdlərə məlumat verilib ki, məktəb 216 şagird yerlikdir. Məktəbin 3 mindən çox dərslik və bədii ədəbiyyat fondu olan kitabxanasında internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkündür. Şahbuz şəhər 2 nömrəli tam orta məktəb 2013-2014-cü tədris ilində keçirilmiş müsabiqədə "Ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülüb. 1930-cu ildə ibtidai məktəb kimi yaradılan təhsil ocağı sonralar 8 illik, daha sonra isə tam orta məktəb statusuna yiyələnib. Müasir standartlara cavab verən, arxitekturası ilə diqqəti cəlb edən üçmərtəbəli yeni tədris binası 2014-cü ilin payızında şagirdlərin ixtiyarına verilib.

Şagirdlər təhsil ocağında üçü elektron lövhə ilə təmin olunmuş 12 sinif otağına, kimya, biologiya və fizika laboratoriyalarına, hərbi kabinəyə, kompüter, şahmat otaqlarına maraqla baxıblar. Kompüter otağında hər biri internetə qoşulmuş 19 kompüter dəsti var. Fənn laboratoriyaları müasir tədris-təcrübə avadanlıqları ilə təmin edilib. Fizika laboratoriyasında quraşdırılan elektron lövhə dərslərin və təcrübə məşğələlərinin müasir tələblər səviyyəsində keçilməsinə şərait yaradıb.

Tur-aksiya iştirakçıları Ağbulaq İstirahət Mərkəzində də olublar. Ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərin nəticəsi kimi diqqəti cəlb edən dağ istirahət mərkəzi 2013-cü ildə istifadəyə verilib. 3,5 hektar ərazisi olan mərkəz 3 yaşayış korpusundan və 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur. Burada 80 nəfərlik yemək zalı, mətbəx, ilkin tibbi yardım və 6 iş otağı var. İstirahət mərkəzində kənd təsərrüfatı məhsullarının satışı mağazası da fəaliyyət göstərir.

Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə məlumatları maraqla dinləyən şagirdlər rəsədxana ilə yaxından tanış olublar. Məktəblilərə bildirilib ki, dəniz səviyyəsindən 2050 metr yüksəklikdə yerləşən rəsədxana binasının günbəzində "SEYYS-600" tipli teleskop quraşdırılıb. Almaniya istehsalı olan teleskopun qurulması prosesində yerli mütəxəssislərlə yanaşı, Moskva Dövlət Universiteti Astronomiya İnstitutunun əməkdaşları da iştirak ediblər. Muxtar respublika ərazisinin astronomik şəraiti normal, səması təmiz və şəffaf olduğundan bu stansiyada Günəşdən başqa bütün göy cisimlərini – planetləri, kometləri, asteroidləri, ulduzları və yaxın qalaktikaları müşahidə və tədqiq etmək mümkündür.

Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq isə buradakı muzeydən başlayıb. Muzeydə qoruq ərazisindəki flora və faunaya aid eksponatlar nümayiş etdirilir. Qoruqda 2899 bitki növü yayılıb ki, bunların bir çoxu, məsələn, müxtəlifrəngli və ətirli süsən növləri, dağlarda yayılmış Şərq laləsi, ətirli yabanı qərənfil növləri, şəhləb, paradoksal süsən və başqaları endemikdir. Geniş müxtəlifliyə malik bitki örtüyü 285 növ faunanın bu ərazilərdə yayılmasına imkan verib. Qoruğun ərazisi geoloji cəhətdən Təbaşir yaşlı çöküntülərdən ibarət sıldırım qayalıqlarla, nival və allüvial relyef formaları ilə xarakterizə olunur. Ərazidə şabalıdı və torflu torpaq tiplərinin mövcudluğu landşaft-bitki örtüyünün formalaşmasında böyük rol oynayıb.

Məktəblilər Batabat yaylağının füsunkar gözəlliyini maraqla seyr ediblər, Naxçıvanın ecazkar təbiətinə heyran qaldıqlarını bildiriblər.

Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponatın qorunub saxlandığı Naxçıvan Dövlət Tarix Muzeyi də məktəblilərdə dərin təəssürat yaradıb. Burada diqqətə çatdırılıb ki, ekspozisiyalar, əsasən, qədim, orta əsrlər, yeni və müasir dövrü əhatə edir. 10 şöbədən ibarət olan muzeydə müxtəlif çeşidli əmək alətləri, Paleolit və Neolit dövrlərinin əşyaları, dən daşları, obsidiandan lövhələr, daş çəkiclər, sümük bizlər, Naxçıvan Muxtar Respublikası ərazisində aşkar olunan mis və gümüş pullar, orta əsrlərin məşhur memarlarından olmuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi möhtəşəm Möminə xatın, Yusif Küseyir oğlu türbələrinə və başqa memarlıq abidələrinə dair şəkilli materiallar, dekorativ-tətbiqi sənətə aid xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq nümunələri, xalq ustalarının gözəl əl işləri sərgilənir.

Şagirdlər Naxçıvan şəhərinin ən hündür məkanında qərar tutan Dövlət Bayrağı Meydanı və Muzeyi ilə də tanış olublar. Qeyd olunub ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il avqustun 22-də imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamına əsasən yaradılıb. Meydanın mərkəzində inşa olunmuş bayraq dirəyinin hündürlüyü 57 metrdir. Burada dalğalanan üçrəngli bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Bayraq dirəyinin piyedestalının altında unikal quruluşa malik Bayraq Muzeyi yerləşir. Səkkizguşəli ulduz formasında olan muzey binası eyni quruluşa malik sütunlarla əhatə olunub.

Bayraq Muzeyi dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri muzeyin ekspozisiyasında sərgilənir.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə gələn tur-aksiyanın iştirakçıları kompleksə böyük maraq göstəriblər.

Sonra məktəblilər Duzdağ Fizioterapiya Mərkəzinə gəliblər. Qeyd edilib ki, mərkəz 1979-cu il dekabrın 29-dan 50 çarpayılıq xəstəxana kimi Naxçıvan duz mədəni bazasında, dəniz səviyyəsindən 1173 metr hündürlükdə fəaliyyət göstərir. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunub. Duzdağ Fizioterapiya Mərkəzinin müalicəvi təsiri, digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar.

Martın 18-i axşam tur-aksiya iştirakçıları "Duzdağ" otelində Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında konsertə baxıblar.

✍ Rauf ƏLİYEV

---

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərinin 12 rayonundan 168 məktəbli 20 bələdçi-müəllimin müşayiəti ilə martın 16-da Naxçıvan Muxtar Respublikasına gəlib. Martın 18-də tur-aksiya iştirakçıları ilə görüşərək onlardan təəssüratlarını öyrəndik.*

## "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın iştirakçıları: Naxçıvan gözəlliklər diyarıdır

*Nərgiz Quliyeva – Bakı şəhəri Piralahı rayonunun 235 saylı tam orta məktəbinin XI sinif şagirdi:*



– Artıq üç gündür ki, mən və mənim kimi onlarla məktəbli ölkəmizin bu əsrarəngiz guşəsinin qonağıyıq. Bu üç gün ərzində Naxçıvanın gəzməli- görməli yerləri ilə tanış olmuş, tarixi və təbiət abidələrinə yaxından baxmışıq. Açığını deyim ki, əvvəllər mən bu qədim diyar haqda ancaq kitablarda oxumuş, televiziyada bir neçə veriliş izləmişdim. Yəni tanışlığım qiyabi idi. Ancaq buraya gəldikdən sonra Naxçıvanın, həqiqətən də, gözəlliklər diyarı olduğunu gördüm. Onu da gördüm ki, burada bizi qarşılayan, bizim qayğımıza qalan insanlar necə də qayğıkeş, mehriban, qonaqpərvər və səmimidirlər. Bu, məni və yoldaşlarımı çox sevindirdi. Bütün bunlara görə minnətdarlığımı bildirirəm.

*Nigar Əliyeva – Bakı şəhəri Xəzər rayonunun 125 saylı tam orta məktəbinin IX sinif şagirdi:*



– Bu gün mənim üçün ən yaddaqalan günlərdən biri oldu. Səhər erkəndən biz dağlar qoynuna, gözəl təbiətli Şahbuz rayonuna yola düşdük. Bizim ilk baş çəkdiyimiz ünvanda, "Farma Şah" müəssisəsində mən ilk dəfə dərman bitkilərinin hazırlanmasını gördüm, bu bitkilərin şəfaverici xüsusiyyətləri haqda məlumat aldım. Sonra biz Şahbuz şəhər 2 nömrəli tam orta məktəblə tanış olduq. Burada gördüklərim məni çox heyrətləndirdi. Sözün açığı, ora çatmazdan əvvəl mənim gözlərim önündə adicə bir rayon məktəbi canlanırdı. Ancaq gördüm ki, bu məktəb öz möhtəşəmliyi, laboratoriyalarının, kitabxanasının, kompüterlərinin, elektron lövhələrinin zənginliyi ilə Bakı şəhərinin ən qabaqcıl məktəblərindən heç də geri qalmır. Qarlı dağların qoynunda yer alan Ağbulaq İstirahət Mərkəzində gördüklərimi də, yəqin ki, uzun müddət unuda bilməyəcəyəm. Belə məkanları mən ancaq televizorda görmüşdüm. Bundan başqa, biz Batabat Astrofizika Rəsədxanasında, Şahbuz Dövlət Təbiət Qoruğunda olduq, bənzərsiz mənzərələrin qoynunda xatirə şəkli çəkdirdik. Bütün bunlar yaddaşımda silinməz izlər buraxdı.

*Məhəmməd Əhmədov – Bakı şəhəri Sabunçu rayonunun 107 saylı tam orta məktəbinin IX sinif şagirdi:*



– Müəllimimdən "Ölkəmizi tanıyaq" devizi ilə keçiriləcək maarifləndirici tur-aksiyada iştirak edəcəyimi, bu aksiya çərçivəsində Naxçıvanda olacağımı eşidəndə çox sevinmişdim. Buraya gəldikdən sonra isə bu sevincim qat-qat artdı. Ona görə ki, ölkəmizin bu guşəsi haqda ətraflı məlumat əldə etdim, çoxlu gözəl yerlər gördüm. Həqiqətən də Naxçıvanın hər bir guşəsi gözəl, maraqlıdır. Bizim üçün ayrılan avtobuslarda saatlarla gəzsəm də, yorulmadım. Bundan başqa, burada çox sayda həmyaşıdlarımla da tanış olmaq imkanı əldə etdim. Onlarla yaxşı vaxt keçirir, gördüklərimiz və öyrəndiklərimiz barədə danışırıq. Bir sözlə, Naxçıvanla tanışlığım mənim üçün çox faydalı oldu.

✍ Səbuhi HÜSEYNOV

---

## Əsgərlərlə görüş

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə gənclərin əsgərlərlə görüşü təşkil edilib. Əsgərlərdə ruh yüksəkliyinin artırılması, onlarda vətənpərvərlik hissinin gücləndirilməsi, çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması, gənclərin vətənə sevgi, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə təşkil olunan görüş Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında baş tutub.



Görüş zamanı hərbi hissə komandiri, polkovnik İspəndiyar Əhmədov çıxış edərək gənclərə hərbi hissə ərazisində olan idarəetmə, tibb, qəbul-çeşidləmə məntəqələri, ideoloji otaq, zərərçəkənlərin yerləşdirilməsi və yeməkxana haqqında məlumat verib.

Sonda gənclər və əsgərlər üçün Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin konserti olub.

---

## "Şahin" hərbi-idman oyununun Kəngərli rayon birinciliyi keçirilib

Kəngərli rayonunun Qıvraq qəsəbəsində yerləşən "N" hərbi hissədə rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəngərli Rayon Şöbəsinin birgə təşkilatçılığı ilə "Şahin" hərbi-idman oyununun rayon birinciliyi keçirilib. Birincilikdə 8 komandada 122 şagird qüvvəsini sınayıb. Birinciliyin açılış mərasimində Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov və Təhsil Şöbəsinin əməkdaşı Səməd Səmədov çıxış edərək iştirakçılara yarışın qaydaları haqqında geniş məlumat veriblər.

Gərgin keçən mübarizə nəticəsində bütün rəqiblərini qabaqlayan Qıvraq qəsəbə tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin komandası ikinci, həmin kəndin 2 nömrəli tam orta məktəbin komandası isə üçüncü yerə layiq görülüblər.

Sonda I, II, III yerləri tutan komandalar və yarışlarda fərdi surətdə fərqlənən şagirdlər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

✍ Ceyhun MƏMMƏDOV

---

**İtmişdir**

Sadiqov Elnur Zöhrab oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yuxarı Uzunoba kənd sakini Həsənova Məhəbbət Vəli qızının adına olan JN-0019 inventar nömrəli 10311048 kodlu torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 225